**Yeni Azərbaycan**. - 2023. - 15 iyun. - № 105. - S. 4.

# HEYDƏR ƏLİYEV BARƏDƏ YAZILMIŞ İLK POETİK MƏTN - CƏNUBİ AZƏRBAYCANIN BÖYÜK ŞAİRİ BULUD QARAÇORLU SƏHƏNDİN “ELİMİN DAYAĞI, YURDUMUN FƏXRİ” ŞEİRİ

**Azər Turan,**
“Ədəbiyyat qəzeti”nin baş redaktoru

Şəhriyarın

*“O da şeirin, ədəbin Şah dağıdır,*
*şanlı Səhəndi,*
*O da səntək atar ulduzlara*
*şeir ilə kəməndi,*
*O da Simurqdan almaqdadı fəndi.*
*... Yaşasın şair əfəndi”*

- deyə vəsf etdiyi otaylı-butaylı Azərbaycanımızın böyük şairi Bulud Qaraçorlu Səhənd “Elimin dayağı, yurdumun fəxri” şeirini 28 iyul 1974-cü ildə Sov. İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevə xitabən yazmışdı və cənublu bir şairimizin qələmə aldığı bu şeir Azərbaycan ədəbiyyatında Heydər Əliyevə həsr olunmuş ilk şeirdir.

Səhənd isə böyük türk alimi Ahmed Kabaklının dediyi kimi, “coşqun və həssas yapıda bir şairdir. Özəlliklə gənclik illərində Türkçü-İslamçı hərəkatlara, demokrasi mitinqlərə felən qatılmış, ömrü boyunca da türk-islam davasının səmimi bir istəklisi olmuşdur. Əsarətin, zillətin kəndisinə ağır gəldiyini ən fazla bağıran Güney Azərbaycan şairlərindəndir...”.

Xəlil Rza Ulutürk isə Səhəndin vətəndaşlıq qayəsindəki səmimiyyətinə diqqəti cəlb edərək yazırdı ki, “Səhəndin vətəndaşlığında nə qədər paklıq, nə qədər yanğı, nə qədər ülviyyət var. Böyük vətəndaşlığı Səhəndin şair varlığında oda, alova, yeni bir istedad qaynağına çevrilib”.

Səhənd həm də yuxarıda qeyd etdiyim kimi, Şəhriyarın ən yaxın dostlarından biriydi və Şəhriyar Azərbaycan poeziyasının incilərindən və bütöv Azərbaycan məfkurəsinin şah əsərlərindən biri olan “Səhəndim” poemasını Bulud Qaraçorlu Səhəndə ithaf etmişdi.

Nə baş verirdi ki, hələ panfarsist ideyaların tüğyan etdiyi, Rza şahın Azərbaycan türklərini ən adi milli hüquqlardan məhrum etdiyi dövrdə, yaxud Xəlil Rza Ulutürkün təbirincə “qocalmış, əprimiş fars millətini gəncləşdirmək, diriltmək üçün əlac axtaran paniranistlər yeganə çarəni Azərbaycan türklərini farslaşdırmaqda gördükləri” 1970-ci illərdə Səhənd Heydər Əliyevə şeir yazırdı və şeirində Əliyevi təkcə Bakının deyil, Təbrizin də, yəni, bütöv Azərbaycanın dayağı adlandırırdı.

“Elimin dayağı, yurdumun fəxri” şeirinin özəllikləri çoxdur. Ən başlıcası isə budur ki, bu şeir dediyim kimi, ümumiyyətlə, Heydər Əliyevə həsr olunmuş ilk şeirdir. Digər tərəfdən, şeirin müəllifi Cənubi Azərbaycanın böyük şairi Bulud Qaraçorlu Səhənddir. Üçüncüsü, Ümumazərbaycan kontekstində bu şeir Heydər Əliyevlə bağlı ümummilli lider anlayışını irəli sürən ilk ədəbi mətndir:

*“Bu gün millətimin dayağı Sənsən,*
*Elimin çörəyi halalın olsun!*
*Dünyalar durduqca əsən dur, əsən!*

*Sənə göz dikmişdir bütün Vətənin!".*

Azərbaycan ədəbiyyatşünasları tərəfindən sətirbəsətir tədqiq olunmasına böyük ehtiyac duyulan bu şeir 1974-cü ildə yazılıb. Yəni o illərdə ki, hələ bizdə Cənubi Azərbaycan probleminin aktuallığı yalnız Bakıda iqamət etmiş mühacirlərlə, eyni zamanda, Azərbaycan Demokrat Firqəsi ilə bağlıdır və belə bir dövrdə, yəni, 1974-cü ildə Cənubi Azərbaycandan tutaq ki, Bakıya sığınmış mühacir general Qulam Yahya ilə heç bir siyasi əlaqəsi olmayan Səhənd Heydər Əliyevə xitabən, "Sənə göz dikmişdir bütün Vətənin!" deyə səslənirdi.

Şeirin başqa bir özəlliyi. Səhənd onu tərənnüm, vəsf şeiri olaraq deyil, ağrı, həsrət, ayrılıq, nisgil şeiri olaraq yazır. Hətta şeirdən anlaşılan budur ki, Bulud Qaraçorlu Səhənd Heydər Əliyevi görmək üçün Təbrizdən Bakıya gəlsə də, məqsədinə çata bilməyib, yəni Heydər Əliyevlə görüşə bilməyib. Çünki həmin günlərdə Heydər Əliyev Bakıda deyilmiş: "İstərdim Bakıda Sən də olaydın".

Cənubi Azərbaycanın öndə olan aydınlarından, şairlərindən biri kimi, Səhənd şimali Azərbaycanın liderinə bütün vətənin göz dikdiyini iqrar edir, Bakıya elin dayağı, yurdun fəxri adlandırdığı Heydər Əliyevlə görüşmək üçün gəldiyini səmimi şəkildə etiraf edirdi:

*Mən istərdim doğma bir qardaş kimi*
*Oturub, əyləşib danışım Sənnən.*
*Bir məsləkdaş kimi, bir yoldaş kimi*
*Söz-söhbət açaydım ana Vətəndən.*

Səhənd Heydər Əliyevlə ana Vətən barədə nə danışacaqdı? Məsələnin sirr pərdəsi də bu nöqtədədir. Şeirdə belə bir fraza var: "Dağlar boyda ağır dərdi özümnən, Təbrizdən Bakıya daşıdım ancaq". Səhəndin Təbrizdən Bakıya daşıdığı dağlar boyda ağır dərdi nə ola bilərdi, bu, indi hər kəsə bəllidir. Amma 1974-cü ildə yazdığı şeirdə Səhənd Bakıda Heydər Əliyevdən başqa, dərdlərini deyəcəyi bir adamın olmadığına da işarət edir:

*"Kimsəyə açmadım, ağır dözümnən*
*Hələlik lazımdır geri qaytarmaq"*

Yetərincə araşdırılmasa da, bəllidir ki, bütöv Azərbaycan problemi Heydər Əliyevin siyasi fəaliyyətinin aparıcı istiqaməti olub. 1990-cı ildə 20 Yanvar faciəsindən az sonra verdiyi bir müsahibədə Azərbaycana rəhbərlik etdiyi yetmişinci illər barədə danışarkən xatırladırdı ki, "son illərdə bir arzum vardı: Cənubi və Şimali Azərbaycanın əlaqələri güclənsin, onlar yaxşınlaşsınlar və gələcəkdə birləşsinlər".

1970-ci illərdə Axundov adına Kitabxanadan İran kitabxanalarına göndərilən kitablar, yaxud digər tədbirlər, Sovet-İran dostluğu səviyyəsində reallaşdırılırdı, bu, başqa. Lakin Cənubi Azərbaycan amilini Heydər Əliyev açıq siyasi mətnlə Səhəndin 1974-cü ildə yazdığı bu şeirdən təxminən 7 il sonra Azərbaycan Yazıçılarının 1981-ci il iyunun 12-də keçirilən VII qurultayındakı çıxışında ifadə edir. "Azərbaycan Yazıçılar İttifaqının son qurultayında (deyəsən, VII qurultayı idi) çıxış etdim, ilk dəfə olaraq Cənubi Azərbaycan sözünün üstündən yasaq götürüldü... O vaxta qədər mətbuatda Cənubi Azərbaycan sözü qadağan idi. Guya bu, SSRİ ilə İranın əlaqələrinə zərbə toxundura bilərdi. Cənubi Azərbaycan şairləri ilə ünsiyyət saxlayırdım. Balaş Azəroğluna Azərbaycanın Xalq şairi adını verdik, qurultayda Yazıçılar İttifaqının katibi seçildi. O vaxta qədər onlar çox sıxılırdılar. Onlara mənəvi arxa, dayaq lazım idi".

Bütün bunları o, 1990-cı ildəki müsahibəsində deyirdi. Bu isə 1981-ci ildə keçirilmiş qurultaydakı çıxışındadır: "Cənubi Azərbaycanla ədəbi əlaqələri möhkəmləndirmək, mədəniyyətin və mənəvi yaradıcılığın

bütün sahələrində geniş əlaqələri inkişaf etdirmək, bizdə toplanmış zəngin bədii-estetik təcrübəni qələm yoldaşlarına vermək barədə düşünmək lazımdır".

Dediyim kimi, məsələ açıq siyasi müstəviyə 1981-ci ildə Heydər Əliyevin bu sözləri ilə keçdi. Doğrudur, Balaş Azəroğludan da əvvəl Yazıçılar İttifaqının rəhbərliyində əslən cənublu Mirzə İbrahimov təmsil olunmuşdu. Lakin 1981-ci ildə Balaş Azəroğlunun katib seçilməsinə, şahlıq üsul-idarəsinin devrildiyi, hakimiyyətə ruhani təmayülün gəldiyi, tarixin yeni məcraya adladığı bir mərhələnin kontekstində baxmaq lazımdır. Məhz belə bir dönəmdə, İran-SSRİ münasibətlərinin həssas bir məqamında əslən cənubdan olan Balaş Azəroğlu Yazıçılar İttifaqının katibi seçilmiş və hələ üstəlik, ona Azərbaycanın xalq şairi fəxri adı verilmişdi.

Film kimi bir həyat yaşamış, nazirdən mürdəşirə qədər ömür yolu keçib sonunda Təbrizdə kimsəsizlər evində dünyasını dəyişən cənublu şair Məhəmməd Biriya barədə yazılan tədqiqatlarda onun taleyi ilə bağlı mühüm bir məqam hər dəfə pərdə arxasında qalır. Məhəmməd Biriya ilə bağlı Heydər Əliyevin fəaliyyətini nəzərdə tuturam: "Cənubi Azərbaycanın böyük bir şairi var idi - Məhəmməd Biriya. Cənubi Azərbaycan hərəkatı zamanı nazir olmuşdu. Sonra Azərbaycana gəlmişdi. Təəssüf ki, 1949-50-ci illərdə Rusiyanın Saransk şəhərində düşərgədə cəza çəkirdi, onu həbs etmişdilər. Mən Respublika Dövlət Təhlükəsizliyi Komitəsində işləyərkən 1958-ci ildə şəxsən Saranska getdim, Biriya ilə görüşdüm, onu Bakıya gətirdim. Çox böyük şair idi". Heydər

Əliyev Dövlət Təhlükəsizliyi Komitəsində işləyərkən Rusiyadan - Saransk həbsxanasından

*"Arama qəbrimi, axtarma*
*mənim başdaşımı,*
*Rəsimdə Həzrəti Nuh,*
*ismdə xatəm də mənəm"*
*deyən yazıq Biriyanı Vətənə gətirmişdi.*

Heydər Əliyev Rza şah hakimiyyətinin son illərində ölkəmizdə cənub mövzusuna təkan vermişdi. İslam inqilabından sonra - 1981-ci ildə Bakıda Şəhriyarın "Aman ayrılıq" kitabının nəşri isə bu prosesin yeni mərhələdə ideoloji başlanğıcı oldu: "Bizi yandırır, yaman ayrılıq, bu darıxdıran duman ayrılıq, aman ayrılıq, aman ayrılıq".

Yenə də Səhəndə və Səhəndin həmin şeirinə qayıdıram. Şeir ilk dəfə Ulutürkün təbirincə "bizim ədəbiyyat institutunun əməkdaşı Ruqiyyə Qənbərqızının tərtibi və ayıq milli şüur işığına qərq olmuş ön sözü ilə" buraxılmış "Sazımın sözü" (1984) kitabında çap olunub. "Yeni Azərbaycan" qəzetinin 3 fevral 2000-ci il tarixli sayında "Qəribə taledə doğulmuşuq biz" adlı məqaləm Səhəndin həmin şeirinə həsr olunub. "Elimin dayağı, yurdumun fəxri" şeiri Azərbaycan ədəbiyyatşünaslığının elmi dövriyyəsinə ilk dəfə tənqidçi Elnarə Akimovanın "Poeziyada Heydər Əliyev idealı" məqaləsi ilə daxil olub...

Şəhriyarın təbirincə "ulduzlara şeir ilə kəmənd atan", şeir yazanda "qələmindən ulduzlar ələnən" Səhənd Pəhləvi rejimi tərəfindən dəfələrlə həbs olunmuşdu, Azərbaycanın birliyi, bütövlüyü, ana dilimiz uğrunda mücadilə vermişdi. Tehran Universiteti professorlarının "zəbani Azərbaycan" deyib dilimizlə bağlı lağlağı kitablar yazdıqları dövrdə necə ki, Şəhriyar "Heydərbabaya salam"ı yazmışdı, Səhənd də eləcə, fars millətçilərinin qarşısına Dədə Qorqud dastanlarının poetik versiyası ilə çıxmışdı:

*"Mənim də əlimdən bu gəlir ancaq,*
*Səni keçmişinlə eyləyim tanış.*
*Başuca yaşamaq istəsən əgər,*
*Bax, gör babaların necə yaşamış".*

Burda həssas bir nöqtəyə də toxunmaq istəyirəm. 1978-ci ildə SSRİ-nin İrandakı səfirliyinin birinci katibi Baranov Kremlə cənubi Azərbaycan şairləri, o cümlədən Səhənd barədə ilk məlumatları ötürəndə artıq Səhənd "Yolumu kəsəmməz qara zülumat" deyib iki dəfə Azərbaycana gəlib-getmiş və hətta Azərbaycan poeziyasının Heydər Əliyev səhifəsinin ilk misralarını - Vətən havalı ilk şeiri yazmışdı.

**Səhənd**

**Elimin dayağı, yurdumun fəxri**

Ustadım Vurğundan söz dilənərək,
Qoy belə başlayım, şeirimi noolar,
O dahi sənətkar söylədiyitək
"Mən çocuq deyiləm, xeyli yaşım var".

Ömrümdə çox isti-soyuqlar görüb,
Başımda bostanlar əkərkən həyat.
Çətinliklər mənnən bacarammayıb,
Yolumu kəsəmməz qara zülumat.

Hər ağır dəhşətə mən dözə-dözə
Məsləkdaş, vətəndaş deyibən gəldim.
Ürək sandığını açmaqçün Sizə
Səfər yarağını geyibən gəldim.

Dağlar boyda ağır dərdi özümnən,
Təbrizdən Bakıya daşıdım ancaq.
Kimsəyə açmadım, ağır dözümnən
Hələlik lazımdır geri qaytarmaq.

Taledən gileyli olmayam gərək,
Ellərimi gördüm gözlərim aydın!
Nəsibim olmadı, ancaq nə etmək?!
İstərdim Bakıda Sən də olaydın.

Hamıdan dinlərkən vəsfini Sənin,
Heyif ki, görüşmək qismət olmadı.
Bisütunlar çapdım mən Fərhad təkin,
Ancaq ki, su gəlib arxa dolmadı.
Mən istərdim doğma bir qardaş kimi
Oturub, əyləşib danışım Sənnən.
Bir məsləkdaş kimi, bir yoldaş kimi
Söz-söhbət açaydım ana Vətəndən.

Sənin həvəsinlə doğma Bakıda

Dayana bilmədim, qaçdım da gəldim.
Yaman mənsiz qaldı o əziz yuva.
Qol-qanad açıban uçdum da gəldim.

Demişlər qara bəxt dağa çıxarsa,
Günəş də gizlənər, dağ duman olar.
Məsəlçün, çağlayan dənizə varsa,
Yay üçün isti su buzlayıb donar.

Qardaşım, görüşmək olmadı qismət,
Nə qədər çırpındı ürəklərimiz.
Nə bilim, nəsibim beləymiş, əlbət,
Qəribə taledə yaranmışıq biz.

Sənə cansağlığı arzulayaraq,
Əminəm ki, bir gün görüşəcəyik.
İnsan istədiyin tapacaq ancaq,
Ürəklər görüşsün qoyaq, hələlik.

Ancaq vaxtın olsa Səhəndi dinlə,
Elinin səsidir Səhəndin səsi.
Bacarsan bu solğun gülləri iylə,
Vətən nəfəsidir, Vətən nəfəsi.

Bu gün millətimin dayağı Sənsən,
Elimin çörəyi halalın olsun!
Dünyalar durduqca əsən dur, əsən!
Sənə göz dikmişdir bütün Vətənin!